**UOT (94)**

# RUSİYANIN YENİ AVRASİYAÇILIQ İDEYASININ TÜRKİYƏ-RUSİYA SİYASİ ƏLAQƏLƏRİNƏ TƏSİRİ

***Elgün Söhbət oğlu Qəhrəmanov***
***Bakı Dövlət Universiteti***
***elgun041@gmail.com***

**Açar sözlər:** *Rusiya, Türkiyə, Avrasiyaçılıq, geosiyasət, Duqin avrasiyaçılığı, rus kimliyi*

*Avrasiyaçılıq yeni və çoxqütblü bir dünya sistemində, Avrasiya qütbünün Rusiya mərkəzli olaraq ortaya çıxarılması ideologiyası və hərəkəti olaraq təyin edilir. Avrasiyaçıların əsas meyarı məkan və tarix üzərində qurulmuşdur. Bu siyasi cərəyanın adı olan "Avrasiyaçılıq" belə bizə düşüncənin əsas prinsipin məkan olduğunu göstərməkdə və məkanla düşünmək Avrasiyaçılığın ən diqqətə çarpan xüsusiyyəti olaraq qarşımıza çıxmaqdadır. Bu qitənin vəziyyəti və özünə xas xüsusiyyətləri məkan faktoruyla açıqlanmaqdadır. Bununla yanaşı geosiyasət elmi ilə Avrasiyaçılıq arasında möhkəm bir qarşılıqlı təsir qüvvəsi var. Geosiyasət elmini nəzərə almadan Avrasiya ilə əlaqəli çox sağlam siyasi, tarixi və iqtisadi fikir yürütmək mümkün deyildi. Rusiyanın xarici siyasətində geosiyasi düşüncələrin, ideologiyaların və cərəyanların ön planada olduğu diqqət çəkən məqamlardandır. Bu baxımdan Avrasiyaçılıq düşüncəsinin geosiyasi və mədəni ölçüsünün araşdırılması, Rusiyanın dövlət siyasətinin qavranılmasında çox vacib istiqamətlər müəyyənləşdirəcəkdir.*

## ВЛИЯНИЕ ИДЕИ НОВОЙ ЕВРАЗИИ РОССИИ НА ТУРЕЦКО-РОССИЙСКИЕ ПОЛИТИЧЕСКИЕ ОТНОШЕНИЯ

***Эльгюн Кахраманов***

**Ключевые слова:** *Россия, Турции, евразийство, геополитика, Дугин, Русская самосознания.*

*Евразийство определяется как идеология и движение появления евразийского полюса как ориентированного на Россию в новой и многомерной мировой системе. Основным критерием для евразийцев является пространство и история. Само политическое движения - «Евразия» - является самой яркой чертой Евразии, чтобы показать нам, что главный принцип мышления - это пространство и мыслить через пространство. Состояние континента и его характеристики объясняются пространственным фактором. В то же время между геополитической наукой и евразийством существует сильное взаимное влияние. Без знания геополитики невозможно было провести здравую политическую, историческую и экономическую мысль с Евразией. Геополитические идеи, идеологии и тенденции во внешней политике России находятся на первом плане. С этой точки зрения изучение геополитического и культурного измерения мысли Евразии позволит выявить очень важные направления в восприятии государственной политики России.*

# THE IDEA OF RUSSIA'S NEW EURASIA INFLUENCE ON TURKISH-RUSSIAN POLITICAL RELATIONS

***Elgun Gahramanov***

**Key words:** *Russia, Turkey, Eurasianism, geopolitics, Dugin, Russian identity*

*The Eurasianism is determined as ideology and act appearing as Eurasia polar and Russian centered in the new and multipolar world system. The main criterion of the Eurasian based on space and history. The name of this political movement "Eurasian" shows us that the main thinking based on the place is the most highlighted character of the Eurasianism. The condition and specific properties of the continent are explained with the factor of the place. There is a strong power of influence between geopolitical science and the Eurasian. It is impossible to pursue a strong political, historical and economical opinion about Eurasia without taking in to account geopolitical science. It is a striking opportunity that the geopolitical thoughts, ideologies are in the foreground in the external policy of Russian. That is why the exploring geopolitical and cultural measure of Eurasian thought defines the main direction in the learning of the state policy of Russian.*

Avrasiya geniş mənada Avropa və Asiya qitələrinin birləşməsi, dar anlamda isə Avropanın şərqi ilə Asiyanın Ural dağlarının da qərb hissəsini əhatə edən, dünyanın mərkəzi bölgəsinə verilən coğrafi anlayışdır. Günümüzdə Avrasiya, xüsusilə, Z.Bjezinskinin adlandırdığı "Avrasiya Balkanları" Avropanın Cənub Şərqi, Orta Asiya, Cənub Asiyanın bir hissəsi, Fars körfəzi və Yaxın Şərq regionları geosiyasi mövqeyi və zəngin enerji resursları ilə dünyanın ən əhəmiyyətli bölgə olaraq qəbul edilməkdədir, bu səbəbdən qlobal güc uğrunda mübarizədə şahmat taxtasına oxşadılır [1,187].

Avrasiyaçılıq termini ilk dəfə Alman coğrafiyaşünas alimi Vladimir Gumbeldt tərəfindən, Rusiyada isə ilk dəfə olaraq Vladimir Lamanski tərəfindən istifadə olunmuşdur [14,116].

Başlanğıcda sadəcə bir coğrafi termin olan Avrasiyaçılıq XIX əsrdən Rusiyada fəlsəfi və ideoloji nəzəriyyə mənasını kəsb etməyə başlamış, XX əsrdə isə böhran vaxtlarında yenidən gündəmə gələrək, Rusiya üçün bir milli ideologiya konsepsiyasına çevrilmişdir. Avrasiyaçılığın, Rusiya tarixində yerini müəyyənləşdirmək üçün, Rusiya siyasi düşüncə sisteminin tarixi müddətinə nəzər salmaq lazımdır.

Qərbçilik cərəyanı, bir tərəfdən sosializmin, digər tərəfdən Fransa inqilabının təsiri ilə Rus milliyətçiliyini və Panslavyanizmi gücləndirərkən, slavyan-pravoslav qardaşlığı və rusların üstün və seçilmiş bir irq olduğu düşüncəsindən yola çıxan "Məsihçi ənənəsini" əhatə edən və Qərbçilik ilə Slavyançılıq arasındakı üçüncü bir orta yol təklif edən Avrasiyaçılıq düşüncəsini də cücərtmişdi. Dostoyevskinin "Avropada qul kimi yaşamaqdansa, Asiyada ağa olmaq" düşüncəsindən təsirlənən ilk Avrasiyaçılar, bu düşüncənin Rusiyanın dini mədəniyyətinə xas olan Avrasiyalı kimliyi olduğu istiqamətində inkişaf etdirmişdilər [15,163].

Avrasiyaçılıq siyasi hərəkatının Nikolay Trubetskoy, Pyotr Savitski, Pyotr Şuşinski və Georgi Florovskinin birlikdə hazırladıqları "Şərqə Çıxış" (Exodus to the East) başlıqlı geniş əhatəli bir işlə başladığı qəbul edilir [2,18]. Avrasiyaçılıq cərəyanın ideologiya atası Trubetskoy hesab olunurdu. İlk olaraq Paris və Praqada düşüncələrini yaymağa başlayan Avrasiyaçılar, 1923-cü ildə ilk nəşriyyat mərkəzləri qurmuşlar və təşkilatlanmağa başlamışlardı. 1928-ci ilə qədər Çexoslavakiya, Bolqarıstan, Avstriya, Yuqoslaviya və Britaniyada müxtəlif Avrasiyaçı dərnəklər açılmışdır. Beləliklə, Avrasiyaçılıq emosional bir hərəkət olmaqdan çıxaraq kütləvi bir hərəkətə çevrilmişdir [9,110]. 1930-cu illərdə daxildə bölünmələr yaşayan Avrasiyaçıların bir qismi Rusiyaya dönərək, SSRİ-nin həqiqi bir Avrasiya dövləti olduğunu müdafiə etməyə başlarkən, bir qismi də bu hərəkatdan ayrılaraq ölkə xaricində fəaliyyət göstərmişdir. Bunların çox hissəsi DTK tərəfindən təmizlənmişdi. Hərəkatın bu şəkildə bitməsi, SSRİ-i dağıldıqdan sonra yenidən başlamasını asanlaşdırmışdı. Çünki, SSRİ-i dövründə bu cərəyan öz siyasi düşüncəsindən uzaqlaşaraq, kommunist

rejiminin propaqandasının bir parçasına çevrilmişdir. Zamanla unudulan və əhəmiyyətini itirən Avrasiyaçılıq, SSRİ-nin dağılmasıyla, ideya axtarışlarla yenidən gündəmə gəlmiş və zaman keçdikcə güc qazanmışdır. 1920-ci illərdə meydana gələn Klassik Avrasiyaçılıq, 1990-ci illərdə Yeni Avrasiyaçılıq olaraq formalaşmışdır [3,307].

Avrasiyaçılar Rusiya tarixi və ictimai təcrübəsinin yenidən ələ alınmasına söykənən bir rus şəxsiyyətini təyin edərkən, bu şəxsiyyətə avropalının meydan oxumasına qarşı "gerçək bir həyat tərzi" təqdim edə biləcək geosiyasi baxışı da ortaya qoymaya çalışmışdı. Beləliklə, Klassik Avrasiyaçılıq olaraq adlandırılan bu cəryan Rusiyanın Qərbi ilə Şərqini bir yerə gətirən Avrasiyalı bir şəxsiyyətə sahib olduğunu ifadə edir.

XX əsrin 80-ci illərində, SSRİ-nin dağılma prosesinə girməsiylə ruslar yenidən, 1920-ci illərdəki vəziyyətə oxşar bir şəkildə bir kimlik və strateji boşluq içərisinə düşmüşdülər. Bu boşluq içərisində Yeni Avrasiyaçılıq-Qərb qarşısındakı zəiflik və güc itkisinin qarşısını alınması, SSRİ-dən sonra rus şəxsiyyətini təyin olunması məqsədləri ilə və ümumi olaraq, Qərbin təzyiqinə cavab kimi ortaya çıxmış və siyasi hadisələr nəticəsində güc qazanmışdır. Necə ki, Krım müharibəsində uğursuzluqdan sonra çarın güc və etibar qazanmaq üçün Asiyaya dönməsi, ya da Avropadakı kommunist inqilablarının uğursuz olmasının nəticəsi kimi, Leninin Asiyaya üstünlük verməsi, yenə də Yeni Avrasiyaçılığın da başanğıc nöqtəsi Rusiyanın dəyişən geosiyasi anlayışları olmuşdur [12,175]

XX əsrin 90-ci illərinin sonunda Rusiya istər-istəməz Avrasiya istiqamətində siyasətini daha da inkişaf etdirməkdədir. Çünki, Rusiyanın Yeni dünyada qarşısında tək qlobal güc olaraq ABŞ, bir tərəfində inkişaf etmiş və yaxşı təşkil olunmuş Avropa İttifaqı, digər tərəfində isə balans ünsürünün potansialını rahatlıqla istifadə edə biləcəyi Asiya ölkələri yer almaqdadır.

Yeni Avrasiyaçılıq hərəkatı, ilkin olaraq, Aleksandr Proxanov, Sergey Kurginiyan, Aleksandr Duqin və Şamil Sultanov kimi tarixçilərin 1990-ci ildə qurduqları "День" (Gün) və "Элементи" (Elementlər) adlı geosiyasi məzmunlu jurnallarda fikirlərini nəşr etməyə başlamasıyla bəyan edilmişdir [2,29].

Siyasi platformada isə Yeni Avrasiyaşılıq düşüncəsi ilkin olaraq, Yeltsin hökuməti və Kozirev liberal siyasətlərinə qarşı, dövrün Dövlət Dumasının rəhbəri Aleksandr Rutskoy və parlamentin mətbuat katibi Ruslan Xasbulatov tərəfindən mülayim tonda, qatı sağçı Rusiya Liberal Demokrat Partiyasının (LDPR) lideri Vladimir Jirinovski və Kommunist partiyasının lideri Gennadiy Zyuqanov isə daha sərt şəkildə tənqidlərlə gündəmə gəlmişdir [13,14].

Eyni zamanda, Klassik Avrasiyaçılıq kimi intellektual zəmində inteqrasiya olunmuş və bir-birini tamamlayan dil, din və siyasi dayaqlara əsaslanan bir düşüncə sistemi olmadığı da ifadə edilirdi. Yeni Avrasiyaçılıq isə SSRİ-nin dağılmasına paralel olaraq, Rusiyanın ciddi bir şəxsiyyət böhranı

keçirdiyi dövrdə ortaya çıxmışdı. Bu baxımdan, Klassik Avrasiyaçılıq düşüncəsinin ortaya çıxdığı dövr ilə Yeni Avrasiyaçılıq anlayışının parladığı zaman dilimlərinin simmetrik olduğu deyilə bilər. Yeni Avrasiyaçılar Avrasiya mədəniyyətinin Rusiya tərəfindən sahiblənməsinin lazım olduğunu qeyd edirlər və Rusiyanın gələcəyinin Qərbin içərisində deyil, bütöv bir Avrasiya bölgəsində meydana gəlməsində görürdülər.

Yeni Avrasiyaçılıq cərəyanın ən vacib fiqurlarından biri olan Aleksandr Duqin, Rusiyanı içərisində iştirak etdiyi Avrasiya coğrafiyasının materik mədəniyyətinin mərkəzi olaraq görür. Aleksandr Duqin Avropa ilə yaradılacaq siyasi müttəfiqliyi ikinci plana ataraq, İran, Türkiyə və əsas olaraq Asiyaya daha böyük əhəmiyyət verirdi. Duqinin nəzərdə tutduğu Avrasiyaçılığın qərbdə ABŞ və müttəfiqlərini, şərqdə Çin və Hindistanı ayırmaq cəhdi, Rusiyanın iki cəbhədə yaşanacaq qarşıdurmanın olması ehtimalını daha da artırırdı. Bunlara baxmayaraq, Aleksandr Duqinin Rusiyanın xarici siyasətində hakim olan çoxqütblü sistem anlayışının meydana gəlməsində böyük rol oynadığını deyə bilərik.

Andrey Sıqankova görə, Yeni Avrasiyaçılıq realist paradiqma üzərində ifadəsini ehtiva edən, lakin Qərb mədəniyyətinin bir məhsulu olaraq milli dövlətlər yerinə mədəniyyət təlqin etmə vasitəsilə imperatorluq yaradılmasına aparılan bir anlayışdır [17,168]. Yeni Avrasiyaçı düşüncənin sosial-mədəni məzmununun meydana gəlməsində çox böyük rol oynayan Aleksandr Panarin Avrasiya Birliyinin Rusiyanın təşəbbüsü ilə yenidən qurulması sayəsində, sistemin çoxqütblülüyünün güclənəcəyini və bu vəziyyətin Çin, Hindistan, ümumillikdə, İslam dünyasına da mühüm bir fəaliyyət sahəsi yaradacağını bildirirdi. Panarin Rusiyanın Qərb mədəniyyətinə qoşulma cəhdlərinin uğursuz olduğunu qeyd edərək, SSRİ-ni formallaşdıran kommunizmi Qərb mədəniyyətinin məhsulu, Rusiyaya yad bir ideologiya olaraq görürdü. Eyni zamanda millətçilik və milli dövlət kimi anlayışları da rədd edərək, bu ünsürlərin Avrasiyanın bütövləşməsinə deyil, əksinə parçalanmasına gətirib çıxaracağını qeyd edən Panarin, dini inancın fərdi deyil, ictimai bir seçim olduğunu təsvir edir və mədəniyyətlərin meydana gəlməsində dinə böyük əhəmiyyət verirdi [12,121].

Yeni Avrasiyaçılıq siyasi hərəkatı, əsasən 1993-cü ilin dekabr ayında Dumaya seçkilərlə birlikdə Rusiyanın siyasi elita və diplomatlarını istiqamətləndirməyə və Rusiya xarici siyasətinə təsir etməyə başlamışdır. Avrasiyaçılığın güclənməsinin əsas səbəbləri soyuq müharibədən sonra Rusiyada həyata keçirilən Qərb yönümlü siyasətin uğursuzluğu, gətirdiyi parçalanma təhlükəsi, dəyişən dünya nizamında NATO-nun və Aİ-nın genişlənməsi, Kosova böhranı olmuşdur desək, səhv etmərik.

Necə ki, Rusiyanın Çeçenistana hərbi müdaxilə etdiyi zaman daxildə ənənəvi siyasətə dönüş etməsi, supergüc rolu oynamağı yenidən istəməsi

düşüncəsi içində çox istiqamətli xarici siyasətin tətbiqi Avrasiyaçı geosiyasi nəzəriyyəsinin formalaşmasına səbəb oldu. Bununla yanaşı, yeni dünya düzəni içərisində mühafizəkar və individualist Avropa ilə dinamik və sosial Asiya mədəniyyətlərinin qarşı-qarşıya gəlməsi də Avrasiyaçılıq konsepsiyasının güclənməsinə təkan verməsinə gətirib çıxartdı. Bu düşüncəyə görə Rusiya "Avrasiyalı" olduğu təqdirdə əməkdaşlıq üçün hər iki tərəfə yaxın, münaqişə olduğu halda, heç birinin tərəfində olmayaraq, xüsusi bir kimliyə sahib ola biləcəkdir [13,21].

Yeni Avrasiyaçılıqla bağlı bir çox təsnifatlar aparılır. Təbii ki, bu da fikir ayrılılıqlarının meydana gəlməsiylə bağlıdır. Əsasən bu cərəyanın iki ana ox üzərindən irəlilədiyini söyləyə bilərik. Bunlar da qatı və mülayim Avrasiyaçılıq olaraq təyin olunur.

Daha əhatəli olması baxımından Ömər Göksel İşyar tərəfindən bu cərəyan dörd qrupa bölünür. Mülayim və stabil, ifrat, demokratik (statizm) və slavyan Avrasiyaçılıqdır [6,106].

Sözsüz ki, Rusiya xarici siyasətində bu siyasi nəzəriyyələrdən istifadə etmişdir. Mülayim Avrasiyaçılıq realizm müstəvisi oxunda anlaşılan proqnozlara dayanır. Praqmatik Avrasiyaçılıq olaraq ifadə edilən bu anlayış, Rusiyanın müasirləşmə yolunda, Qərb mədəniyyətini bütövlükdə qəbul etmək məcburiyyətində olmadığı qeyd edilirdi. Primakov və Putinin siyasəti praqmatik Avrasiyaçılıq çərçivəsində görülürdü. Qərb mədəniyyətinin fərdçiliyinə qarşı çıxan mülayim Avrasiyaçılar bütöv bir ictima-siyasi quruluşun üzərində dayanırdılar. Olduqca praqmatik bir siyasi anlayışa sahib olan Putin, Yeni Avrasiyaçılığın strateji proqnozlarından faydalanaraq, Rusiyanı yenidən bir siyasi qütb halına gətirmişdir. Putin tərəfindən səsləndirilən beynəlxalq sistemin çoxqütblü bir struktura çevrilməsi düşüncəsinin də əsasında Avrasiyaçılıq anlayışının təsiri olduğunu söyləyə bilərik [16,82]. Vladimir Putin, Yeni Avrasiyaçılığın praqmatik proqnozları və müxtəlif xarakterlərini ilə birləşdirərək təşkilatlanma istiqamətindəki ilk addım kimi Rusiya, Qazaxıstan və Belarus arasında gömrük birliyinin yaradılması fikirlərini ortaya atırdı. Və bunun fonunda Avrasiya İqtisadi Birliyinin formalaşması, Yeni Avrasiyaçılıq cərəyanın regional iqtisadi birlik yaratmaq istiqamətindəki yanaşmasına uyğun bir layihədir.

Qərbçi Dmitri Trenin və Aleksandr Pumpianskiye görə, Avrasiyaçılıq ölü bir məqsəddir, separatçıdır, anti-moderndir və Rusiyanı dünyadan təcrid etməyi güdür.

Bununla yanaşı, Yeni Avrasiyaçılıq həm geosiyasətdə, həm sosial-mədəni ölçüdə öz daxilində təzadlar yaratmağa başladı. Yaxın Çevrə konsepsiyasında Rusiyanın təsir sahəsinə yalnız Ukrayna və Belarusiya ilə məhdudlaşmaq istəyən bir qrup mövcud idi. Buna paralel olaraq, Avrasiya coğrafiyasında Türkiyə daxil olmaqla, türk və müsəlman ölkələri ilə ittifaq

məsələsində bir fikir ayrılıqları yer alırdı. Uzaq Çevrədə isə, mübahisələr daha çox Çinlə ittifaq məsələsində ortaya çıxmışdır. Jirinovski, Çinin iqtisadiyyatını və əhalisini Rusiyaya qarşı potensial bir təhlükə, Duqin isə, Çini Atlantik Blokun parçası olaraq görürdü və əlaqələrin inkaşf etdirilməsinə qarşı çıxırdı. Panarin, Zyuqanov və Primakov isə əksinə, bu ölkə ilə münasibətlərin inkişaf etdirilməsini zəruri hesab edirdilər.

Bu siyasi düşüncə Rusiyanın xarici siyasətində Türkiyə ilə əlaqələrdə də mühüm rol oynayır. Türkiyədə istər millətçilik, istərsə də türk Avrasiyaçılığının ortaya çıxmasında və güclənməsində Rusiya Avrasiyaçılığı ilə coğrafi məkan, geosiyasi təsbitlər və tarixi proseslər baxımından oxşarlıqlar olduğu görünür. Kiyev-rus knyazlığının və səlçuqların inkişaf prosesləri və zəifləmə səbəbləri də bir-birinə oxşar idi. Bölünən Rus knayzlıqlarının və türk bəyliklərinin keçdiyi yollar və monqol hücumlarına məruz qaldıqları, sonrasında Osmanlı bəyliyinin və Moskva knyazlığının güclü Avrasiya imperatorluğuna çevrilməsi və Birinci Dünya müharibəsindən sonra dağılmaları da, oxşar şəkildə həyata keçmişdi. Qərb qarşısında uğursuzluqlar, hərbi-texniki sahələrdə geridə qalması və ərazi itkiləri, Rusiyada XIX əsrin II yarısından etibarən Avrasiyaçılığın yaranmasına səbəb olurkən, Osmanlı dövlətində də türkçülüyün meydana gəlməsinə zəmin hazırlamışdır. Cumhuriyyətin ilk illərində Yusuf Akçura, Nihal Atsız və Reha Oğuz Türkkan kimi mütəfəkkirlərlə dəstəklənən Turançılıq, 1980-ci illərdə hakimiyyəti əsas aparıcı siyasi nəzəriyyəsinə çevrildi [2,161].

Türkiyənin son illərdə ABŞ və Avropa ilə maraq qarşıdurmalarının həll edilə bilməməsi türk ictimaiyyətində yeni bir xarici siyasət seçimi olaraq istiqamətin Rusiyaya çevirməsi və əlaqələrin inkişaf etdirilməsində Avrasiyaçılıq cərəyanı bazasında bir strateji ittifaq həyata keçirilməsi müzakirə edilmişdir.

Türkiyə Avrasiyaçılığı 1990-ci illərin II yarısından etibarən, türk millətçiləri oxu ətrafında hərəkət edən siyasi partiya və təşkilatlar, ordu nümayəndələri, Qərb əleyhdarlığından formalaşan sosialist partiyalar və hərəkatlar formasında meydana çıxmışdır. İşçi Partiyası və İşıq jurnalı isə Türk Avrasiyaçılığının ən aktiv aktyorlarına çevrilmişdir. Türk Avrasiyaçılığını ideoloji siyasi düşüncə olaraq qəbul edən bu təşkilatların ortaq nöqtələri Qərb əleyhdarlığıdır [14,456].

Türkiyədə 1991-ci ildən sonra Avrasiyaya və Türk Respublikalarına əsas olaraq Mühafizəkar fikir, Milliyətçi fikir və Sosialist fikir olmaqla, üç fərqli yanaşma mövcud olmuşdur.

Mühafizəkar fikir-ABŞ-ın "yaşıl qurşaq" anlayışı çərçivəsində, əsasən Rusiya Federasiyası və türkdilli dövlətlərdə təhsil müəssisləri, dini fondlar və mətbuat-nəşr mətbəələrini quraraq, türk-islam sintezi əhatəsində mədəni birliyin və iqtisadi əlaqələrin artırılması üzərində qurulmuşdu. Əhməd Davudoğlu tərəfindən sərhədləri cızılan və mövcud hökumətin xarici siyasətinə də

istiqamət verdiyi, müşahidə olunan Yeni Osmanlıçılıq konsepsiyasına yaxın şəkildə, Aİ-yə üzvlük və ABŞ-la strateji ortaqlıq siyasətlərindən imtina etməyərək, Rusiyanın slavyan-ortodoksal Avrasiyaçılıq çərçivəsindəki Yunanıstan, Kipr, Ermənistan və İranla meydana gətirdiyi ittifaqa qarşı Qərb dəstəyinin təmin edilməsi nəzərdə tutulurdu [13,63].

Milliyyətçi fikirlərdə dindən əvvəl türkçülük əsasında bir quruluş nəzərdə tutulurdu. Digər tərəfdən, klassik Turançılıq anlayışının reallaşmasının qısa müddətdə mümkün olmayacağını hesab edənlər, bir keçid mərhələsi olaraq, Rusiya ilə münasibətlərin inkişaf etdirilməsi və Avrasiya Birliyinin qurulmasına isti baxırdılar.

Aleksandr Duqin 2003-cü ilə qədər Türkiyəni Atlantik İttifaqının bölgədəki ən təhlükəli nümayəndəsi olaraq görmüşdü. ABŞ ilə əlaqələrinin gərginləşməsi və Rusiyada dialoqların inkişaf etdirilməsindən sonra bu düşüncələrini dəyişən Duqin, Türkiyənin güclü “Avrasiya Strateji İttifaqının” qurulmasında çox böyük, hətta başılıca rol oynaya biləcəyini ifadə etmişdir [3].

Bu çərçivədən baxıldığında, Duqinin Avrasiyaçı geosiyasi yanaşması, Türkiyə və Rusiyanın ancaq qısa müddətli və taktiki əməkdaşlıq edə biləcəyini ortaya qoymaqda idi. Putin dövründə tətbiq olunan xarici siyasət araşdırıldığında Avrasiya materikində uzunmüddətli perspektivlər çərçivəsində Rusiya ilə Türkiyənin, xüsusilə, Qafqaz və Orta Asiyadakı maraqlarına tərs edəcəyi müşahidə edilməkdədir. Təsadüfi deyil ki, Putin dövründə Türkiyə ilə Rusiya arasında həyata keçirilən ilk protokol “Avrasiya Fəaliyyət Planıdır.” 2001-ci ildə hər iki ölkənin Xarici İşlər Nazriləri tərəfindən imzalanan protokol - ticarət, mədəniyyət və turizm sahələrində əməkdaşlığı özündə ehtiva edirdi. Bu illərdə bütün dünyanın diqqətini çəkən Türkiyə-Rusiya yaxınlaşmasının əsas səbəbləri olaraq, qarşılıqlı iqtisadi maraqlar, regional təhlükəsizlik qayğıları və dünyada baş verən hadisələr olmuşdur.

Bütün bunların nəticəsi olaraq, Yeni Avrasiyaçılıq Rusiyanın rəhbəriliyi ilə Avrasiyada strateji inteqrasiyanı davam etdirərək, Rusiya xaricindəki digər ölkələrə də yayılmışdır. Yuxarıda qeyd etdiyimiz kimi, Avrasiyaçılıq fikrini Türkiyədə D.Perinçekin nəzarəti altında “Aydınlıq Qrupu” təşkilatı dəstəkləmiş və sahiblənmişdir. Bu çərçivədə 2003-cu ilin noyabr ayının 20-də Moskvada Beynəlxalq Avrasiya Hərəkatı fəhlə partiyasının iştirakı ilə konfrans keçirilmişdi. Konfransın sonunda Beynəlxalq Avrasiya Hərəkatının Ali Şurası üçün keçirilən seçkilərdə Fəhlə Partiyasının başçısı Doğu Perinçek də Ali Şura üzvlüyünə seçilmişdir [4, 9]. Bu çərçivədə başlayan yaxın əlaqələr davam etdirilmiş və müxtəlif vasitələrlə Duqin Türkiyəyə dəvət edilərək, İşçi Partiyasının təşkil etdiyi konfranslarda iştirakçısı olmuşdu. Duqin bu əməkdaşlığı “Türkiyənin Avrasiyaçılıq strategiyası” adlı məqaləsində qeyd etmiş və Avrasiyaçılığın Türkiyədə ən aktiv bir şəkildə sol dairələrdə yayılmasını vurğulamışdı. Bu Avrasiyaçılığın sol “kommunist” versiyasıdır. 90-ci

illərin başlanğıcında rus kommunistlər (G.A.Zyuqanovun rəhbərliyi altındakı Rusiya Federasiyası Kommunist Partiyası) oxşar bir təkamül keçərək Avrasiyaçılıq fikirlərini qəbul edərək mənimsəmiş, bunları yeni şərtlərə uyğun yenidən işlənmiş və adaptasiya olunmuş kommunist nəzəriyyələrlə birləşdirmişlər. Bu müddətdə sol və qatı solçular üçün ənənəvi olan Antikapitalist və Antiamerikan fikirləri hakim olaraq, davamlı şəkildə artan millətçilik və neo-kamazlizm ətrafında birləşmişlər [7, 118]. Təbii ki, Duqin dəfələrlə qeyd edirdi ki, Moskva ilə Ankaranın Avrasiya oxu ətrafında yaxınlaşması mümkündür. Avrasiya çox böyük ərazidir və hər kəsə yetəcək qədər böyükdür. Ankara-Moskva oxu isə xeyli problemləri həll edə biləcəkdir.

Çox maraqlıdır ki, Aleksandr Duqinin nəşr olunan əsərlərində Avrasiya layihəsi üçün düşünülən fərqli mülahizələrdə, Türkiyə həmişə kənarda saxlanılırdı. 1999-cü ildə nəşr olunan kitabında, Duqin Avrasiyada Rusiyanın strateji ortağı olaraq Türkiyəni yox, İranı məsləhət görürdü [12,131]. 2004-cü ildə nəşr olunan başqa bir kitabında isə "Moskva-Berlin", "Moskva-Tokiyo" "Moskva-Tehran" oxlarını ətraflı şəkildə izah edilirkən, Moskva-Ankara oxundan bəhs edilmirdi [208,107]. Lakin o, 2005-ci ildən başlayaraq Moskva-Ankara oxunun çatışmazlığını hiss edərək bir neçə məqalə yazmağa başlamışdır.

ASAM-ın müdiri Ümit Özdağa görə, Türkiyədəki Avrasiyaçılıq mərkəzlərinin daxilində bəzi ziddiyyətlər onların müfəssəl bir təşkilata çevrilməsinin qarşısını almaqdadır. Ruslar və türklər terminoloji olaraq Avrasiya anlayışına fərqli yanaşırlar [2,15]. Avrasiyaçılıq düşüncəsi Türkiyədə tam mənasıyla aydınlıq gətirilmiş bir anlayış deyildir. Əslində Türkiyədəki Avrasiyaçılıq düşüncəsi Aİ-nın Türkiyənin üzvlük tələbini dəfələrlə rədd etməsinə qarşı bir anti-tezis olaraq meydana gəlmişdir. SSRİ-nin dağılmasından sonra Mərkəzi Asiyadakı yeni türk respublikalarının ortaya çıxması bu düşüncənin yayılmasını sürətləndirmişdi. Sol meyilli dairələr, millətçi ictimai qurumlar, qlobalaşmaya qarşı olanlar və ABŞ-ın dünyadakı tək qütblü hegemoniyasına qarşı güclər, bütün bunlara etiraz olaraq, Avrasiyaçılıq düşüncəsini dəstəkləyirdilər.

Rusiyada türk Avrasiyaçılığına şübhə ilə yaxınlaşırlar [10, 270]. Rusiyada Türkiyədəki Avrasiya modeli tamamilə özünəməxsus, Türkiyə ilə türk respublikaları arasında kök əlaqəsinə söykənən bir birlik formulu olaraq qəbul edilirdi. Buna görə də, soyuq müharibənin bitməsi və SSRİ-nin dağılmasından sonra, Avrasiyaçılıq düşüncəsinə müraciət edərək və bu düşüncəni özlərinə uyğun şəkildə formalaşdırırdılar. Təbii ki, bu anlayışın Rusiyada daha çox mübahisələrə və müzakirələrə məruz qalmış müxtəlif yönləri meydana gəlmiş olsa da, Türkiyədə, fərqli olaraq, konkret istiqamətdə formalaşmışdı.

Rusiyanın bu geosiyasi anlayışının son hadisələrdə (Suriya məsələsi) Türkiyəyə təsirləri haqqında bəzi siyasi nəticələr çıxarmaq olar. Avrasiyaçılıq

düşüncəsindəki niyyət və həqiqətin əsl üzünün Duqinin əsərlərində yer almasına baxmayaraq, Türkiyə ictimaiyyətində bu, fərqli bir şəkildə əks olunmuşdur. Belə ki, iqtisadi olaraq qismən özünə gəldikdən və hərbi sahədə modernləşdirilməyə getdikdən sonra, Rusiyanın ətrafındakı ölkələrə müdaxilə etməyə başlaması, Duqinin geosiyasi metodunun yalnız nəzəri bir yanaşma və ya fantaziya olmadığını və Putin tərəfindən mənimsənilərək, konyuktura şərtlərin təqdim etdiyi fürsətlərdən istifadəylə həyata keçirildiyini tərəddüdə yer buraxmayacaq şəkildə göstərmişdir.

Hərbi qırıcı təyyarənin Suriya-Türkiyə sərhədində Türkiyə tərəfindən vurulmasını bir fürsət olaraq qiymətləndirən Rusiya, böhranı şüurlu və əlaqələri pozacaq şəkildə idarə etmişdi. Son hadisələrin ən əhəmiyyətli və əsas təsiri Türkiyənin sabitliyinə və daxili təhlükəsizliyinə olan təsirdir. Rusiyanın PYD (Partiya Yekitiya Demokrat) və PKK-ya açıq dəstək verməsi, PYD-yə Rusiyada nümayəndəlik açmasına icazə verməsi (2016-ci il fevral), bu bölgədəki PKK və PYD-nin varlığının siyasi və hərbi cəhətdən daha çox güclənməsinə səbəb olacaq və bunun qısa bir müddət sonra Türkiyədəki təsiri daha çox hiss olunacaqdır. Xüsusilə, bu separatçı təşkilata satılan müasir tipli silahlara rəğmən, terrorla mübarizədə çətinliklərin və itkilərin artacağı gözlənilirdi. ABŞ və Avropa ölkələrinin də oxşar şəkildə PYD və PKK-a dəstək verməsi, Suriyadan qaynaqlanacaq risklərin ən üst səviyyəyə çıxmasına səbəb ola bilərdi. Su-24 qırıcı təyyarəsinin vurulmasından sonra, Rusiyanın Hava-Kosmik Qüvvələrinin yerləşdiyi Suriyanın "Xmeymim" aviabazasına S-400 "Triumf" zenit-raket sistemi yerləşdirən Rusiya, bölgədə hava hücumundan müdafiə üstünlüyünü təmin edərək, Türkiyənin Suriyada edə biləcək hər hansı hava əməliyyatlarının qarşısına almış və Türkiyənin silah sistemləri ilə, müdaxilə qabiliyyətli artilleriya atışlarını məhdudlaşdırılmış oldu.

Xaricdən də nəzarət edilən digər qatı sol meyilli təşkilatların da aktivləşdiyini nəzərə alaraq, yeni bir qeyri-sabitlik dövrünə girildiyini və bu vəziyyətin Türkiyəni daha uzun illər məşğul edə biləcəyini təxmin etmək çətin deyil. Suriyadakı vəziyyət dünya və regional güclərinin əməkdaşlığı ilə parçalamağa doğru gedərkən, Suriyanın şimalında yaradıla biləcək Kürd Muxtar Vilayətinin Hatay sərhədlərinə qədər yerləşməsiylə Türkiyənin Orta Şərqə çıxışı da kəsilmiş olacaqdı. Bu da rəqib halına gələcək kürd bölgəsi ilə hər hansı əlaqənin mümkünsüzlüyü səbəbindən Orta Şərqlə qurudan ediləcək ixrac qapılarının bağlanmasına səbəb olacaqdı.

Duqinin Rusiya geosiyasi konsepsiyasında ifadə etdiyi kimi, Orta Şərq regionunda İran ilə ediləcək tam bir əməkdaşlıq, Türkiyəni bu regionda təcrid olunmasını daha asan vəziyyətə gətirəcəkdir. Qərb dünyasının İran ilə son dövrdə əlaqələrini yumşaltması və inkişaf etdirməyə çalışması da Rusiya-İran əməkdaşlığının bölgədəki təsirini daha da artıracaq, Türkiyə üçün isə, regionda siyasi, iqtisadi və təhlükəsizlik riskləri getdikcə böyüyəcəkdi.

PKK və digər terror təşkilatlarına nəzərdə tutulan açıq dəstək ilə Türkiyə daxilindəki təhlükəsizlik riskləri ən üst səviyyəyə çatdırılaraq, Kürdistanın qurulması ilə bağlı fikirlər daha da artırılacaqdır. Bu yolla daxili problemləri ilə sıx bir şəkildə məşğul edilən Türkiyənin daxilinə bağlanması təmin ediləcək, xüsusilə Rusiyanın "arxa bağçası" olaraq gördüyü Qafqaz, Orta Asiya və Balkan regionlarından, Duqinin ifadə etdiyi şəkildə Türkiyənin uzaq qalması da təmin olunacaqdır.

Bir tərəfdən PKK-ya dəstəyini, digər tərəfdən də təşkilat çərçivəsində PKK maskası altında erməni ünsürləri artıran Rusiyanın geosiyasi yanaşmasında ifadə edildiyi kimi, Anadoluda kürd dövləti yanında bir erməni bölgəsinin yaradılmasına zəmin hazırlanmağa çalışılması gözlənilə bilər. Uyğun şərtlər hazırlandıqdan sonra Türkiyə daxilindəki ermənilər ilə yanaşı, xaricdən də ermənilərin köç etdirilməsi surətiylə, Şimal-Şərqi Anadolu regionunda bir erməni dövləti qurulma səylərinin sürətləndirilməsi gözlənilləndi. Bunun reallaşdırılması vəziyyətində Anadolunun Qafqaz ilə olan əlaqəsi də kəsilmiş olacaq, beləcə, Türkiyənin Qafqaz və Orta Asiyaya açılma yolları tamamilə bağlanaraq Rusiya geosiyasi konsepsiyasında göstərildiyi şəkildə bölgədən tamamilə uzaqlaşdırılmış olacaqdır. Söz yox ki, Türkiyə güclü bir dövlət olaraq bugünkü siyasətində bunları nəzərə alır və gözlənilən bütün təhlükələrin öhdəsindən layiqincə gələ bilər.

## ƏDƏBİYYAT


1. Bjezinski Z. Böyük Şahmat Taxtası. Amerikanın hökmranlığı və onun geostrateji imperativləri. (tərcümə edən Yaşar Əsədov), Bakı, Qanun nəşriyyatı, 2011, 328 s.
2. Akgül F. Rusya ve Türkiyede Avrasyacılık. İstanbul, IQ Kültür Sanat Yayıncılık, 2009, 239 s.
3. Dugin A. Rus Jeopoltiği Avrasyacı Yaklaşım, (tərcümə edən Vüqar İmanov), İstanbul,Küre Yayınları, 2005, 338 s.
4. Çeçen A. Türkiye ve Avrasya. Ankara, Fark Yayınları, 2006, 414 s.
5. Bilgiç M. "Rus Jeopolitiği. Avrasyacı Yaklaşım ve Türkiyeye Etkileri", BİLGESAM Analiz/Rusya №1317, 4 mayıs 2016, s.7-18.
6. Ömer G İ. Avrasyada Devletlerin şekilleniş, Yükseliş ve Düşüş surecleri: Türk ver rus örnekleri. USAK dergisi, cilt:3,sayı:6, s.104-136, Ankara,2008
7. Salih Y. Yeni Avrasyacılık ve Rusya. Sosyal Bilimler Araştırmalar Dergisi, Bahar, 2015, sayı.34, s.111-120.
8. Ekrem E. Türkiye`nin Şanghay İşbirliği Örgütü üyeliği. http://www.s de.org . tr / tr/authordetail/-turkiyenin-sanghay-isbirligi-orgutu-uyeligi //1107

9. Vişne K. Tarihsel Gelişim içerisinde Avrasya Hareket ve Öğreti. Klassik ve Yeni Avrasyaçılık. Akademik Araştırmalar Dergisi, Avrupa/Avrasya Özel Sayısı, kasım 2004, sayı.23, s.106-133
10. Панарин А. Глобальное политическое прогнозирование Алгоритм. Москва 2000(АКТ) 405 с.
11. Шлыков П.В. Евразийство и Евразийская интеграция в политической идеологии и практике Турции// Сравнительная политика и Геополитика, Москва,2017,Т.8,№1,с.58-76.
12. Дугин А.Г. Основы геополитики. Геополитическое будущее России. Мыслить Пространством. М., АРКТОГЕЯ- центр, 2000, 360 с.
13. Иванов А.И., М.Й.Шишин. "Историческое обоснование турецкого евразийтства и представляется сомнительным." Диалог Евразия, 2002, №6 стр.80-89
14. Akçali E., Perincek M. "Kemalist Eurasianism: An Emerging Geopoliticial Discourse in Turkey," Geopolitics, 14(2009), p.450-469
15. David K. "The New Eurasianism: The Rise of Geopolitics in Russia`s Foreign Policy." Europe-Asia Studies. September 1995, Vol.47, Issue 6, p.19-36.
16. Richard S. Russian Politics (3-rd edition). London Routledge.2002. p.363
17. Tsygankov A.P. "National Ideology and IR Theory: Three Incarnations of the Russian Idea," European Journal of International Relations 16(4), p.163-186, (2010)